# Üzümüzə gülən yaz



**Əli Rza XƏLƏFLİ**

## "Təzə bahar" poemasından parçalar

Yenə bahar gəldi, güldü çəmənlər,
Oxudu gül üstə, şehdə çimənlər.

Göy üzü açıldı qız örpəyi tək,
Çırpındı qönçələr quş ürəyi tək.

Küləklər tərpətdi baxçanı, bağı,
Bağlar qarşıladı gələn qonağı.

Açıldı ürəklər, güldü könüllər,
Qönçələr üstündə ötdü bülbüllər.

Büründü yaşıla bomboz təpələr,
Hərdən narın-narın yağış səpələr.

Kolların dibindən küskün bənövşə,
Can atdı yerisin, çıxsın bir döşə.

Zəmilər içində boy verdi lalə,
Allandı, od saçdı qızıl bir halə.

Gözümün önündən keçdi zamanlar,
Gül açdı, dil açdı, dindi gümanlar.

Gördüm ki, xaraba yurdlar oyanır,
Ümidlər, inamlar, qurdlar oyanır.

Gülür üzümüzə torpaq da, daş da,
Ümidlər göyərir, bitir yaddaşda.

Sevgilər təzədən gül açır, gülür,
Aşiqlər eşq ilə yol açır, gəlir.

Sevinir yollar da yazın üzünə,
İlham süfrə açır sözün üzünə.

Bu Novruz - Yeni gün, sevda çələngi,
Ötən zamanlara vida çələngi.

Qəlbimiz, ruhumuz sevgiylə dolur,
İnamsız, ümidsiz duyğular solur.

Baharı gözləyən gözlərimizdə,
Həsrət oda yanır közlərimizdə.

Axır ki, gün gəldi bu yazı gördük,
Bu yazda gül açan bəxt yazı gördük.

Gördük təzə yağış, ötdü yer üstə,
Gördük haqq-ədalət bitdi yer üstə.

Sevindi qəlbimiz diləklərimiz,
Gəldi təzə nəfəs - küləklərimiz.

* * *

Bəlkə, şəhid olub sevgilin sənin,
Onunçun olmusan kövrək, bənövşə.
Yaz ağzı soyuğa açma sinəni,
Dərdin sinəm üstə titrək, bənövşə.

Göz dəyər soyunub şehdə çimənə,
Qəfil sırsıradan qorxa, eymənə...
Yazdan xəbər üçün çölə, çəmənə,
Nə yaman gəlmisən yüyrək, bənövşə.

Dağında, bağında göz olan gözəl,
Yandırar gözləri köz olan gözəl.
Başının bəlası söz olan gözəl,
Bəxtindən hürkəksən, hürkək, bənövşə.

Axır ki, dolanıb üzü bu yana,
Haqdan cəza gələr sənə qıyana.
Bitmisən göz dağı talana, qana,
Kolların dibində seyrək, bənövşə.

Xələfli söyləsin həzin əsənə,
Bəxtindən gileyli qalıb küsənə;
Şəhidlik yolunda can dedi sənə,
Yağıya göz dağı Beyrək, bənövşə.

* * *

Gülmədi gül üzünə gül arzular, Gülxanım,
Aşiqin də başına kül arzular, Gülxanım.

Yol olmadı bir gedək istəyin gül üzünə,
Bağlandı üzümüzə keçid, dahar, Gülxanım.

Qış çəkdik bir qərinə, buz bağladı sinəmiz,
Gün doğdu, buz da sındı, gəldi bahar, Gülxanım.

Həsrətinin dağına yağsa da əlçim-əlçim,
Yaz qabağı çox qalmaz, əriyər qar, Gülxanım.

Gözlərimdə gül açıb ümidin bənövşəsi,
Bir gül ilə yaz olmaz, axı söz var, Gülxanım.

Gərilmiş simə dönüb ürəyimin telləri,
Xoş ovqatla məclis qur, çalınsın tar, Gülxanım.

Gözəllər gülə bənzər - göz açıb belə gördük,
Gül xanım bircə sənsən, sözdü onlar, Gülxanım.

Yara var sinəm üstə, çat-çat olub közərir,
Necə ki, paralanır, bölünür nar, Gülxanım.

Zaman-zaman oxunar yaddaşlarda bu əsər,
Xələflinin kitabı - yazılıb, var, Gülxanım.

2021

Kredo 2021.- 17 mart.- S.1.